**Xidmətin məzmunu :**
Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması

**Xidmətin aid olduğu təsnifat :**
Mənzil və kommunal təsərrüfatı

**Xidməti həyata keçirən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı :**
İcra Hakimiyyəti Başçısı Aparatının memarlıq və tikinti şöbəsi

**Xidmətin hüquqi əsası :**
- Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 24.1-ci maddəsi;

- "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 24 may 2010-cu il tarixli 272 №-li Fərmanının 1.4-ci bəndi;

- Azərbaycan Respublikası Prezidentinin 06 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.9.12-ci yarımbəndi.

**Xidmətin həyata keçirilmə formaları :**
Xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız daşıyıcısında təqdim olunması

**Xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması :**
Poçt xidməti vasitəsilə məlumatlandırma

**Xidmətin həyata keçirilməsinin nəticəsi :**
İcra Hakimiyyəti Başçısının yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması barədə sərəncamı

**Xidmət istifadəçisi barədə məlumat :**

- Fiziki şəxslər
- Hüquqi şəxslər

**Xidmətin həyata keçirilməsi müddəti, Dövlət rüsumu, Xidmət haqqı, Ödənişin hüquqi əsası :**

**Müddət (Məbləğ) :** 30 gün

**Ödənişsiz :** Xidmət ödənişsiz həyata keçirilir

## Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti :

Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00)

## Xidmətin göstərilmə yeri :

Şəki Şəhər İcra Hakimiyyətinin inzibati binası

## Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları :

- Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 25-ci maddəsinə görə yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasını razılaşdırmaqdan imtinaya aşağıdakı hallarda yol verilir:
- Bu Məcəllənin 24.2-ci maddəsində nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;
- Sənədlər Şəhər İcra Hakimiyyətinə deyil, digər orqana təqdim edildikdə;
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması layihəsi yaşayış sahəsindən təyinatı üzrə istifadəni təhlükəli və ya qeyri-mümkün edən dərəcədə yaşayış sahələri üçün qanunvericiliklə müəyyən olunmuş sanitariya və texniki norma və qaydalara uyğun olmadıqda;
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması layihəsi qonşuların və ya digər üçüncü şəxslərin hüquqlarını və qanuni mənafelərini pozduqda (həmin qonşu və ya üçüncü şəxslərin belə yenidən qurulma və (və ya) yenidən planlaşdırılmaya yazılı razılıq verdiyi hallar istisna olmaqla);
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması layihəsi qonşuların və ya digər üçüncü şəxslərin həyat və sağlamlığına təhlükə yaradırsa;
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması layihəsi binanın xarici görünüşündə dəyişiklik edilməsini nəzərdə tutduqda belə dəyişikliyin binanın xarici görünüşü, arxitektura və təhlükəsizlik sahəsində qanunvericiliklə müəyyən olunmuş tələblərə cavab vermədiyi hallarda.
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasını razılaşdırmaqdan imtina haqqında qərar bu Məcəllənin 25.1-ci maddəsində nəzərdə tutulmuş pozuntulara mütləq istinad etməklə və həmin pozuntuların mahiyyətinin nədən ibarət olduğunu göstərməklə əsaslandırılmalıdır.
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasını razılaşdırmaqdan imtina haqqında qərar onun qəbul edildiyi gündən üç iş günü müddətində ərizəçiyə təqdim edilir və ya göndərilir və həmin qərardan ərizəçi tərəfindən məhkəmə qaydasında şikayət verilə bilər.

## Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması :

**Tələb olunan sənədin adı**
- Tələb olunan sənədin təqdimedilmə forması

**Yenidən qurulması və (və ya) yenidən planlaşdırılması nəzərdə tutulan yaşayış sahəsi və ya onun yerləşdiyi bina (ev) memarlıq, tarix və mədəniyyət abidəsi olduqda, həmin yaşayış sahəsinin yenidən qurulmasının və (və ya) yenidən planlaşdırılmasının aparılmasının mümkünlüyü barədə müvafiq icra hakimiyyəti orqanının rəyi**
- Poçt vasitəsi ilə və ya şəxsən

**Sosial kirayə müqaviləsi əsasında verilən yaşayış sahələrinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması nəzərdə tutulan yaşayış sahəsindən istifadə edən kirayəçinin bütün ailə üzvlərinin (o cümlədən müvəqqəti başqa yerə getmiş ailə üzvlərinin) yazılı razılığı (ərizəçi qismində bu Mənzil Məcəlləsinin 24.2-ci maddəsində nəzərdə tutulmuş sənədlərin təqdim edilməsinə kirayə verən tərəfindən səlahiyyət verilmiş yenidən qurulması və (və ya) yenidən planlaşdırılması nəzərdə tutulan yaşayış sahəsinin kirayəçisi çıxış etdikdə)**
- Poçt vasitəsi ilə və ya şəxsən

**Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasına dair ərizə**
- Poçt vasitəsi ilə və ya şəxsən

**Yenidən qurulması və (və ya) yenidən planlaşdırılması nəzərdə tutulan yaşayış sahəsinə dair hüquq müəyyənedici sənədlər (sənədlərin əsli və ya notariat qaydasında təsdiq olunmuş surətləri)**
- Poçt vasitəsi ilə və ya şəxsən

**Yenidən qurulması və (və ya) yenidən planlaşdırılması nəzərdə tutulan yaşayış sahəsinin texniki pasportu**
- Poçt vasitəsi ilə və ya şəxsən

**Yenidən qurulması və (və ya) yenidən planlaşdırılması nəzərdə tutulan yaşayış sahəsinin müəyyən edilmiş qaydada tərtib edilərək hazırlanmış yenidən qurulması və (və ya) yenidən planlaşdırılması layihəsi**
- Poçt vasitəsi ilə və ya şəxsən

## Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar :
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması tikinti norma və qaydalarına riayət etməklə İcra Hakimiyyəti Başçısının sərəncamı əsasında aparılır.
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması üçün yaşayış sahəsinin mülkiyyətçisi və ya mülkiyyətçinin səlahiyyətli nümayəndəsi (bundan sonra bu fəsildə - ərizəçi) İcra Hakimiyyətinə müvafiq sənədləri təqdim edir.
- Razılaşdırma və ya razılaşdırmadan imtina haqqında qərar İcra Hakimiyyəti tərəfindən təqdim edilmiş müvafiq ərizənin və digər sənədlərin

baxılmasının nəticələri əsasında İcra Hakimiyyətinə təqdim edildiyi gündən otuz gündən gec olmayaraq qəbul edilməlidir.
- İcra Hakimiyyəti razılaşdırma barədə qərar qəbul etdiyi gündən üç iş günündən gec olmayaraq belə qərarın qəbul edilməsini təsdiqləyən sənədi ərizəçiyə təqdim edir və ya ərizədə göstərilən ünvana göndərir.
- Bu sənəd yaşayış sahəsinin yenidən qurulmasının və (və ya) yenidən planlaşdırılmasının aparılması üçün əsasdır.
- Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının başa çatması İcra Hakimiyyətinin yaratdığı qəbul komissiyasının aktı ilə təsdiqlənir.
- Qəbul komissiyasının aktı İcra Hakimiyyəti tərəfindən dövlət kadastr uçotunun aparılması məqsədi ilə daşınmaz əmlakın dövlət reyestrini aparan orqana göndərilməlidir.

## Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar :

- İstifadəçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-ci maddəsinə əsasən inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və və ya hərəkətsizliyindən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına inzibati qaydada şikayət edə bilər.
- Ərizə və ya şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş qaydada müddətində baxılır.

## Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları :

Yoxdur

## Xidmətin həyata keçirilməsində istifadə edilən fərdi məlumatların informasiya sistemləri :

Yoxdur

## Xidmətin elektronlaşma səviyyəsi :

Elektronlaşdırılmayıb

## Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi :

Avtomatlaşdırılmayıb

# Şəki Şəhər İcra Hakimiyyəti

| | |
|---|---|
| **Ünvan:** | Az 5500 20 Yanvar küçəsi, 8 |
| **Telefon:**<br>**Faks:** | (024) 244-33-23<br>(024) 244-39-94 |
| **E-poçt:** | mail@sheki-ih.gov.az |
| **Rəsmi internet informasiya ehtiyatının ünvanı:** | sheki-ih.gov.az |
| **VÖEN:** | 3000072051 |
| **Ödəmə rekvizitləri:** | A 1. Emitent (ödəyən) bank<br>Adı: Kapital bank Şəki filialı<br>Kodu: 200703<br>VÖEN: 9900003611<br>Müxbir hesabı: AZ37NABZ01350100000000001944<br>S.Ü.İ.F.T. BİK: AIIBAZ2X<br><br>A 2. Ödəyən müştəri<br>Adı: Şəki Yerli Xəzinədarlıq Orqanı (YXO)<br>Hesab nömrəsi: AZ03AIIB32051019447000201170<br>VÖEN: 3000104011 |
| **İş qrafiki və orqan tərəfindən zəruri hesab edilən digər məlumatlar:** | Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00) |